Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Ən böyük nailiyyətimiz əbədi müstəqilliyimizdir

**18 oktyabr –Milli Müstəqillik günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı -2020**

**Tərtibçilər:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**“Ən böyük nailiyyətimiz əbədi müstəqilliyimizdir”**: Kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası;metodik vəsait / tərt.ed. K. Səmədzadə; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2020.-.49 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Tərtibçidən

Azadlıq uğrunda uzun illər mübarizə aparan Azərbaycan xalqı bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazanıb. Lakin tarix sübut edib ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Gərək sınaqlara hazır olasan, hər bir əziyyətə, çətinliyə dözməyi bacarasan. Təəssüf ki, 1918-ci il may ayının 28-də qurulmuş Azərbaycan Xalq Cumhuriyyəti xarici müdaxilə, daxili çəkişmələr və beynəlxalq təminatın olmaması səbəblərindən süqut edib. Şərqdə ilk demokratik respublikamiz cəmi 23 ay yaşayıb. İkinci tarixi imkan bir də 70 il sonra yarandı. 1991-ci il oktyabrın 18-də Azərbayvcan Respublikası Ali Sovetinin sessiyyasında “Azərbaycanın dövlət müstəqilliyi” haqqında Konstitusiya Aktı” qəbul olundu. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu. Bununla da Azərbaycan tarixində yeni dövrün başlanğıcı qoyuldu.

## Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir.

Azərbaycan öz dövlət müstəqilliyinin bərpa olunmasının ildönümünü qeyd edir. Bu illər ərzində ölkəmiz daxili və xarici siyasət sahəsində böyük uğurlara imza atmışdır. Dövlət müstəqilliyi – bu fundamental milli dəyər hər bir Azərbaycan vətəndaşı üçün müqəddəsdir. Xalqımız keçmişin bütün buxovlarından azad olduqdan sonra milli-mənəvi dəyərlərin bərpasına yeni zəmin yarandı. Milli-azadlıq mübarizəsi dövründə millətin həmin dəyərlər uğrunda canından belə keçməyə hazır olması xalqımızın milli dövlətçilik dəyərlərinə sadiqliyinin nümunəsidir.

Müasir Azərbaycanın siyasi müstəqilliyinin bünövrəsi olan iqtisadi müstəqilliyimizin dayaqları hələ keçən əsrdə ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu böyük şəxsiyyət 1969-1982-ci illərdə respublikaya rəhbərlik edərkən sovet rejiminin sərt qadağalarına baxmayaraq, müstəqil iqtisadiyyatın formalaşması üçün səylə çalışmışdır. Təkcə belə bir faktı xatırlatmaq yerinə düşərdi ki, Heydər Əliyev hakimiyyətə gəlməmişdən öncə, ötən əsrin 60-cı illərində Azərbaycan üzrə iqtisadi göstəricilər orta İttifaq səviyyəsi ilə müqayisədə adambaşına düşən məcmu ictimai məhsul istehsalı həcminin 75,8%-i, milli gəlir istehsalının 74,0%-i, sənaye məhsulu istehsalının 75,8%-i, kənd təsərrüfatı məhsulu istehsalının 68,7%-i, fəhlə və qulluqçuların orta aylıq əməkhaqqının 95,5%-i, pərakəndə ticarət dövriyyəsinin 69,2%-i səviyyəsində idi.

Müstəqil Azərbaycan iqtisadiyyatının müasir dayaqları, məhz 1969–1982-ci illərdə qoyulmağa başlamış və böyük uğurlar əldə edilmişdir. Belə ki, həmin dövrdə milli gəlir 2,6 dəfə, sənaye məhsulunun həcmi 2,7 dəfə, kənd təsərrüfatı məhsulunun həcmi 2,3 dəfə artmışdır. Bu dövrün müstəqil iqtisadiyyat yaradılmasına köklənmiş ən xarakterik cəhətlərindən biri kimi respublikada 243 yeni iri sənaye müəssisəsinin tikilib istifadəyə verilməsini, iqtisadiyyata 813 min nəfər əlavə işçi qüvvəsi cəlb olunmasını, təkcə sənayedə

əsas istehsal fondlarının 2,3 dəfə artırılmasını göstərmək olar. Qeyd edilən illər ərzində sənaye istehsalının həcmi 1920–1970-ci illərlə müqayisədə 2 dəfə, elmi-texniki tərəqqini müəyyənləşdirən əsas sahələrdə isə 2,4 dəfə artmışdı.

Ötən əsrin sonunda yenicə müstəqillik qazanmış Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, onu inkişaf etdirməyi özünün əsas vəzifəsi hesab edən, dövlətçilik ənənələrini əldə rəhbər tutan ulu öndər Heydər Əliyev respublikamızda dövlət quruculuğunun və dövlətçiliyin inkişafının təməl prinsiplərinin əsasını yaratmışdır. Bu istiqamətdə həyata keçirilən iqtisadi islahatlar və strategiya nəticəsində ölkədə iqtisadi tənəzzülün qarşısı alınmış və ictimai-siyasi sabitliyi təmin etmək mümkün olmuşdur.

Heydər Əliyevin dövlətçilik strategiyası ölkənin tarixi-iqtisadi xüsusiyyətlərini, geosiyasi şəraiti, milli mənafeyi, müasir dövrün tələblərini əsas tutaraq fəaliyyətin prioritet istiqamətlərini özündə əks etdirir. Makroiqtisadi sabitləşmə, bütün sahələrdə islahatların həyata keçirilməsi, beynəlxalq inteqrasiya proseslərinə fəal surətdə qoşulma, ölkənin geosiyasi və geoiqtisadi mövqelərinin möhkəmləndirilməsi, xalqın sosial rifahının yaxşılaşdırılması, xarici iqtisadi əlaqələrin genişləndirilməsi, beynəlxalq maliyyə kredit təşkilatları ilə əlaqələrin təkmilləşdirilməsi kimi vacib və zəruri məsələlər ölkənin dövlətçilik strategiyasında xüsusi yer tuturdu.

Azərbaycan iqtidarının formalaşdırdığı və reallaşdırdığı makroiqtisadi sabitləşmə siyasətinin xarakterik cəhətləri çoxsaylı və çoxşaxəlidir. Bunlardan birincisi ondan ibarətdir ki, ulu öndər bu sabitliyin təmin edilməsinin əsasını neft siyasətində, onun bazasında reallaşdırılan xarici investisiya siyasətində görürdü. Bu istiqamətdə aparılan məqsədyönlü fəaliyyət və Heydər Əliyevin titanik səyləri sayəsində 1994-cü il sentyabrın 20-də bağlanmış “Əsrin müqaviləsi” ölkəmizin taleyində həlledici rol oynadı. Bu müqavilənin reallaşdırılması nəticəsində dünyanın ən tanınmış şirkətləri Azərbaycana cəlb edildilər. Onların respublikamızla birgə fəaliyyətdə olduqları

son 25 il ərzində iqtisadiyyata 125 milyard dollar həcmində xarici investisiya qoyuldu. Həmin dövr ərzində iqtisadiyyata qoyulan daxili investisiyaların da həcmi təqribən xarici investisiyaların həcmi qədər olmuşdur. Aparılan təhlillərdən belə nəticəyə gəlmək olar ki, ulu öndər tərəfindən aparılan köklü islahatlar nəticəsində iqtisadiyyat yenidən qurulmuş yeni iqtisadi sistemə transformasiya sürətlə getmiş, ölkənin geosiyasi və geoiqtisadi mövqeyi möhkəmlənmiş, ümumbəşəri dəyərlərdən bəhrələnərək idarəetmə modellərinin müsbət meyilləri əsasında iqtisadiyyatın sahələri inkişaf etdirilmiş və nəticədə Heydər Əliyev tərəfindən milli dayanıqlı və davamlı iqtisadi inkişaf modeli formalaşdırılmışdır.

2003-cü ildən başlayaraq ümummilli liderin davamlı iqtisadi inkişaf modeli Heydər Əliyev məktəbinin istedadlı yetirməsi möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla və yaradıcılıqla inkişaf etdirilir. Daxili və xarici siyasət sahəsində qazanılan uğurlara, həmçinin neft strategiyasının reallaşdırılması, ölkədə makroiqtisadi sabitliyin davamlılığının təmin edilməsi sayəsində möhtəşəm nəticələrə görə cənab İlham Əliyev xalqın şəksiz liderinə çevrilmişdir. Onun birbaşa rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində 2003-cü ildən bu günədək ölkə iqtisadiyyatı real ifadədə 3,2 dəfə artmışdır. Bu dünya miqyasında rekord göstəricidir. Həmin dövr ərzində ölkədə sənaye istehsalı 2,6 dəfə, ixrac 4,7 dəfə, valyuta ehtiyatları 24 dəfə artmışdır. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatına təxminən 250 milyard ABŞ dolları həcmində sərmayə qoyulmuşdur. Prezident İlham Əliyevin siyasətinin ən uğurlu məqamlarından biri ondan ibarətdir ki, Azərbaycan beynəlxalq aləmdə öz mövqelərini durmadan möhkəmləndirir. Ölkəmiz Dünya Bankının "Doing Business" hesabatında 2006-cı ildə qeydə alınmış və o zaman 98-ci yerdə qərarlaşmışdı. Aparılan düzgün, məqsədyönlü, səmərəli islahatlar nəticəsində Azərbaycan 2018-ci ildə 25-ci yerə yüksəlmişdir. Azərbaycan "Doing Business – 2020" hesabatında islahatları inkişaf etdirən 20 ölkə sırasındadır. Bu hesabatın bloq yazısında qeyd edilir ki, Azərbaycan 4 əsas

sahədə islahat aparıb: “Azərbaycan “Doing Business”də asanlıqla ölçülə bilən 4 biznes yumşaltması həyata keçirib. Onlar “əmlakın qeydiyyatı”, “azlıqda olan investorların hüquqlarının müdafiəsi”, “kreditlərin alınması” və “müqavilələrin icrasının təmin edilməsi” sahələridir”.

2003–2018-ci illər ərzində əhalinin məşğulluq problemləri uğurla həll olunmuş, 2 milyon yeni iş yeri yaradılmışdır.

Ölkədə dayanıqlı, sabit inkişafı təmin etmək məqsədilə həyata keçirilən mühüm proqramlardan biri regionların sosial-iqtisadi inkişafının təmin edilməsi olmuşdur. Bu məqsədlə üç dövrü – 2004-2008, 2009-2013, 2014-2018- ci illəri əhatə edən “Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları” qəbul edilmiş və uğurla həyata keçirilmişdir. Hazırda yeni 2019–2023-cü illəri əhatə edən dördüncü proqramın icrasına start verilmişdir. Ölkəmizdə iqtisadi inkişaf dinamikasının təmin edilməsi məqsədilə həyata keçirilən ən mühüm tədbirlərdən biri də ailə biznesinə dəstəyin verilməsidir. Bu məqsədlə ölkədə Ailə Biznesinə Asan Dəstək – “ABAD” Mərkəzi yaradılmış və onun miqyası getdikcə böyüməkdədir. Bu fəaliyyət istiqaməti “ASAN” xidmətin bir qolu olmaqla əhali arasında çox yüksək məmnunluqla qarşılanır və geniş təşəkkül tapmışdır. İctimai həyatımızın bir şox sahələrinə aid olan xidmətlərin “ASAN”a verilməsi məhz bu layihənin Azərbaycan brendi olması və yüksək səviyyədə xidmətlərin göstərilməsi ilə bağlıdır. Hazırda ölkədə 15 “ASAN” mərkəzi fəaliyyət göstərir. Təkcə 2019-cu ildə yeni 5 “ASAN” mərkəzin fəaliyyətə başlaması planlaşdırılır.

Son illərdə sosial-mədəni tədbirlərin genişləndirilməsində Azərbaycanın birinci xanımı, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın da misilsiz xidmətləri xüsusi vurğulanmalıdır. İnsanlara sosial-mənəvi dəstək verilməsində, təhsil, mədəniyyət sahəsində uğurlar daha böyükdür.

Hakimiyyətin düşünülmüş siyasəti nəticəsində Azərbaycan həm iqtisadi, həm siyasi cəhətdən sabit və

təhlükəsiz bir məkana çevrilmişdir. Azərbaycanda formalaşan və artıq beynəlxalq güclər tərəfindən də qəbul edilən davamlı, dayanıqlı iqtisadi inkişaf modelinin əsas gücü ondadır ki, xalq onu bəyənir və dəstəkləyir. Bu modelin reallaşdırılması nəticəsində ölkəmiz güclü dövlətə çevrilmişdir. Məhz bunun nəticəsində Azərbaycan beynəlxalq kürsülərdə öz sözünü deyir, müstəqil siyasət aparır və maraqlarını qoruya bilir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan düzgün iqtisadi və siyasi islahatlar nəticəsində ölkəmiz dünyada gedən riskli proseslərdən özünü qoruya bilmiş, dünya böhranından sonra dinamik inkişafını davam etdirmişdir. Onun rəhbərliyi dövründə ölkənin enerji təhlükəsizliyi tam təmin edilmiş və etibarlı energetika sistemi yaradılmışdır.

1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkəmizin iqtisadiyyatında başlanan canlanma nəticəsində yeni neft və neft-qaz müqavilələri imzalanmış, enerji ixracı marşrutları reallaşdırılmışdır. Bu sahədə "Bakı –Tbilisi – Ceyhan" neft kəməri xüsusi əhəmiyyətə malikdir. Əgər "Əsrin müqaviləsi" kimi nəhəng kontraktın imzalanması müstəqillik illərinin enerji tarixinin ilk əsas səhifəsini təşkil edirsə "Bakı – Tbilisi – Ceyhan"ın inşası bu tarixin yeni və şərəfli bir səhifəsidir. Bunun ardınca qaz ixracının əsas marşrutu olan Bakı – Tbilisi – Ərzurum (Cənubi Qafqaz) boru kəməri işə salınmışdır. Hazırda ölkəmizdən neft və qazın ixracını təmin edən 7 kəmər mövcuddur.

Avropada ən iri infrastruktur layihələrindən biri olan Cənub Qaz Dəhlizinin tikintisi sona çatır. Dörd layihədən ibarət olan bu meqalayihə artıq yekunlaşmaq mərhələsindədir. Dörd layihədən üçü istifadəyə verilib. Ötən il TANAP və Cənubi Qafqaz dəhlizinin açılışı olmuşdur.

Ölkədə aparılan məqsədyönlü iqtisadi siyasət nəticəsində Azərbaycan nəinki bölgədə, eləcə də Avrasiya məkanında nəqliyyat mərkəzinə çevrilib. Bakı – Tbilisi – Qars dəmir yolunun işə salınması tarixi hadisədir. Bununla yanaşı Şimal – Cənub nəqliyyat dəhlizinin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Bu gün Şərq – Qərb və Şimal – Cənub nəqliyyat

dəhlizlərində birləşən ölkələrin sayı artmaqda davam edir. Bu səbəbdən də Azərbaycan Avrasiyada çox böyük strateji nəqliyyat mərkəzinə çevrilmişdir. Heç şübhəsiz, ölkə iqtisadiyyatının davamlı inkişaf modelinə transformasiya olunması, dayanıqlı və tarazlı inkişaf, makroiqtisadi sabitləşmə mexanizminin qurulması bu dövrün ən möhtəşəm uğurlarından biri kimi qeyd olunmalıdır. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bəyan etdiyi "Azərbaycan dünyada sabitlik adasıdır, inkişaf məkanıdır" ifadəsi çox möhtəşəm səslənir və opponentlərə qarşı ortaya qoyulan fundamental, təkzibedilməz bir reallıqdır.

Beynəlxalq maliyyə institutları Azərbaycan iqtisadiyyatının 2019-cu və sonrakı illərdə iqtisadi vəziyyətinə dair yeni proqnozlarını açıqlayıb. Üç beynəlxalq maliyyə təşkilatı – Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və Asiya İnkişaf Bankının ekspertlərinin açıqladığı hesabatlarında Azərbaycan iqtisadiyyatının gələn il və yaxın ortamüddətli dövrdə dayanıqlılığının qorunub saxlanacağı, qeyri-neft iqtisadiyyatında inkişafın sürətlənəcəyinə dair nikbin proqnozlar öz əksini tapıb. Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə iqtisadi mərkəzinin təmsilçisi Hons Timmer bildirib ki, Azərbaycanda 2019–2020-ci illərdə ÜDM-in orta illik tempi 3% səviyyəsində proqnozlaşdırılır. Hesabata əsasən 2019-cu ildə ÜDM-in artımı 2,8%, 2020-ci ildə – 3,8%, 2021-ci ildə 3,7% təşkil edəcəkdir.
Proqnozlara əsasən növbəti illərdə ölkədə iqtisadi artımın əsas mənbəyi qeyri-neft sektorudur. Həmin sektorun payı ÜDM-də 60 faizdən yüksək olacaq.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev haqlı olaraq qeyd edir ki, qeyri-neft sektorunun inkişafı bizim üçün həmişə prioritet olub. Bunun nəticəsidir ki, bu gün ölkə iqtisadiyyatı dünyada çoxşaxəli iqtisadiyyat kimi tanınır. Bu tendensiya investisiyaların həcminin artmasına müsbət təsir edəcəkdir. Növbəti illərdə inflyasiya 4–6% civarında proqnozlaşdırılır.

2019-cu ildə tədiyyə balansının yaxşılaşacağı, 2020-ci ildə isə ixracın daha da artması hesabına müsbət saldonun yüksələcəyi gözlənilir.

Beynəlxalq Valyuta Fondunun "Qafqaz və Mərkəzi Asiya" üzrə regional iqtisadi proqnoz hesabatlarında bildirilir ki, 2019-cu ildə qeyri-neft sektoru üzrə artım 2,8%, 2020-ci ildə isə daha da çox olacaqdır.

Həmin fondun məlumatlarına görə 2019-cu ildə Azərbaycanda həm yerli, həm də xarici investisiyaların qoyuluşu artacaq, maliyyə bazarındakı vəziyyət tədiyyə balansını yaxşılaşdıracaq, Mərkəzi Bankın strateji valyuta ehtiyatları artaraq 6-7 milyard dollara çatacaqdır.

Real iqtisadi artıma və davamlı inkişafa köklənmiş bu proqnozlar, sözsüz ki, maliyyə sektorunun da davamlı inkişaf proqnozlarını şərtləndirir. Belə ki, 2020-ci ildə dövlət büdcəsinin gəlirləri 24484,0 mln.manat məbləğində proqnozlaşdırılır ki, bu da 2019-cu ilin təsdiq edilmiş göstəricisi ilə müqayisədə 1316,0 mln. manat və ya 5,7 faiz çoxdur. Büdcə gəlirlərinin tərkibinə qeyri-neft gəlirləri (10536,5 mln. manat) 43 faiz, neft gəlirləri (13847,5 mln. manat, o cümlədən, Dövlət Neft Fondundan transfert 11767,5 mln. manat) isə 57 faiz təşkil edəcəkdir. Qeyd edək ki, 2020-ci il üzrə dövlət büdcəsinin tərkibində gözlənilən qeyri-neft gəlirləri cari ilə nisbətən 1068,8 mln. manat və ya 11,3 faiz çoxdur. 2020-ci il dövlət büdcəsinin kəsirinin 1133,7 mln.manat olması planlaşdırılır ki, bu da carı ilin göstəricisindən 888,3 mln. manat və ya 43,9 faiz azdır.

2020-ci ildə Azərbaycanın dövlət büdcəsinin xərcləri 25 mlrd. 617 mln.manat təşkil edəcək, 2019-cu illə müqayisədə bu göstərici 427,7 mln. manat çoxdur. Sosialyönümlü xərclər dövlət büdcəsinin 40,7%-ni təşkil edəcəkdir, bu da 2019-cu ilin analoji göstəricisindən 2662,2 mln. manat, yaxud 9 faiz çoxdur. Göstərək ki, əməkhaqlarının ödənilməsi 6723,4 mln. manat, pensiya və sosial müavinətlərin ödənilməsinə 3213,4 mln. manat, icbari tibbi sığortanın tətbiqinə 902,9 mln. manat xərclənəcəkdir.

2020-ci ildə dövlət büdcəsinin kəsirinin 1133,7 mln. manat olması planlaşdırılır ki, bu da cari ilin göstəricisindən 888,3 mln. manat və ya 43,9 faiz azdır. Ənənəvi olaraq, kəsirin maliyyələşdirilməsi xaricdən cəlb edilən kreditlər, daxili borclanma, o cümlədən, qiymətli kağızların buraxılışı, özəlləşdirmədən daxilolmalar və vahid xəzinə hesabının qalığı hesabına aparılacaqdır. Təqdirəlayiq haldır ki, ölkəmiz xarici dövlət borclarının ÜDM-in tərkibində tutduğu xüsusi çəkisinin az olması baxımından dünya ölkələri içərisində ilk onluqda qərarlaşmışdır. Bu da gələcək nəsillərin üzərinə artıq yük qoyulmaması üçün müsbət bir göstəricidir.

Beləliklə, deyilənləri yekunlaşdıraraq, belə bir qənaətə gəlmək mümkündür ki, Azərbaycan hökumətinin yürütdüyü müasir iqtisadi siyasət düzgün və səmərəli həyata keçirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daxili və xarici siyasətində daha böyük uğurlar qazanılması günümüzün reallığıdır.

# I BÖLMƏ

***“Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması, onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir”***

**Heydər Əliyev**
*Ümumilli lider*

İnsan üçün azadlıqdan, dövlət üçünsə müstəqillikdən əziz, şirin heç nə yoxdur. Zəngin tarixi keçmişə malik Azərbaycan xalqı azad yaşayış, müstəqil dövlət uğrunda uzun və mücadilələrlə dolu bir yol keçmişdir. Azərbaycan təbii sərvətlərinə görə nə qədər zəngin olsa da, coğrafi mövqeyinə görə əlverişli ərazidə yerləşsə də, bu nemətlərə tam şəkildə sahib ola bilməmiş, illərlə müstəkəmləkəçilik zülmü altında yaşamağa məcbur olmuşdur. Əsrlərlə yurdumuzun təbii sərvətləri talanmış, torpağında yadellilər at oynatmış, ikiyə parçalanmış, xalqımıza öz mənliyini ifadə etməyə imkan verilməmişdir. Amma azadlıq elə bir sehrli məfhumdur ki, cazibəsinə düşən ona nail olmayınca rahatlana bilməz. “Bir gün azad yaşamaq, yüz il əsarətdə qalmaqdan yaxşıdır”- deyimi hər bir azərbaycanlının beynində, şüurunda kök saldıqca istiqlala gedən məsafə də azalmışdır. Həqiqətən də, xalqın milli şüurunda yaranmış inqilabın və ölkəni hərtərəfli çulğamış milli azadlıq hərəkatının qanunauyğun nəticəsi olaraq 1918-1920-ci illərdə Azərbaycan bütün müsəlman Şərqində ilk parlamentli, demokratik respublika formasında dünyəvi dövlət qurmuşdur. Ümummilli liderimiz Heydər Əliyev çıxışlarında tez-tez deyirdi ki, biz nadir bir irsin varisləyirik: “Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq

olmağa çalışaraq böyük bir tarixi keçmişi, mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır".

Beş min illik dövlətçilik tarixinə malik olan Azərbaycan əsrlər boyu mücadilələr aparmış, torpağına göz dikən, azadlığını buxovlayan, ona düşmən kəsilən yadellilərlə ölüm-dirim savaşına qalxmış, saysız qurbanlar vermişdir. Ötən əsrin əvvəllərində xalqımızın böyük mübarizələr, savaşlar sayəsində nail olduğu müstəqilliyi də uzun sürməmiş, cəmi 23 ay davam gətirə bilmişdir. Tarix üçün bu, çox qısa bir zaman olsa da, əhəmiyyəti baxımından xalqımızın qan yaddaşına əbədilik həkk olunmuşdur. Çünki XX yüzilliyin başlanğıcında yeni şəraitdən, dünyanın köhnə nizamının pozulmasından məharətlə istifadə edən ziyalılarımız xalqın milli azadlıq arzularının ifadəçisi oldular.

Azərbaycan Xalq Cumhuriyyəti bütün vətəndaşlarını konstitusion hüquqlarla təmin etmişdi, daxili quruluşundan asılı olmayaraq, bütün ölkələrlə münasibətləri qarşılıqlı faydalılıq əsasında qurmağa çalışmışdı.

Azərbaycan Xalq Cumhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə 23 ay yaşamasına baxmayaraq, nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi qalmışdır. Cumhuriyyətin demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə və s. sahələrdə atdığı addımlar yarımçıq qalmadı, müstəqilliyini XX əsrin sonlarında yenidən bərpa edən dövlətimiz varislik ənənələrini yaşatdı, inkişaf etdirdi.

Qeyd etmək lazımdır ki, 1991-ci ildə yenidən qazandığımız müstəqillik xalqımızın ötən əsrin əvvəllərində yaşadığı şərəfli tarixin şüurlarda yaratdığı milli oyanışın, azadlıq eşqinin bəhrəsi idi. Həmin il avqustun 30-da "Azərbaycanın müstəqilliyi haqqında" bəyannamə, oktyabrın 18-də isə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktı qəbul olundu. Bununla da, Azərbaycan

müstəqil, demokratik və dünyəvi bir dövlət kimi yenidən mövcudluğunu dünyaya bəyan etdi. Dövlət müstəqilliyimizi dünya ictimaiyyəti tanıdı və qəbul etdi. Həmin tarixi və möhtəşəm gündən artıq 26 ilədək bir müddət keçir. Bu müddət ərzində Azərbaycan bütün sahələrdə inkişafa, tərəqqiyə nail oldu. Amma əldə edilən nailiyyətlər, uğurlar asanlıqla başa gəlmədi. Müstəqilliyimizin ilk illərində xalqımız, sözün həqiqi mənasında, ağır, məşəqqətli günlər yaşadı. Onsuz da, 1988-ci ildən Ermənistanın Azərbaycana qarşı başlamış olduğu torpaq iddiası və işğalçılıq siyasətə respublikamizda vəziyyəti son dərəcə ağırlaşdırmışdı. Ermənistandakı dədə-baba torpaqlarından vəhşicəsinə qovulmuş soydaşlarımız qaçqın və məcburi köçkün kimi Azərbaycana pənah gətirmişdilər. Çadır düşərgələrinin sayı gündən-günə artırdı. Torpaqlarımızda müharibə gedirdi. Dağlıq Qarabağa daxil olan rayon və kəndlər, həmçinin ətrafdakı bölgələr erməni quldurları tərəfindən işğal olunurdu. Qarabağın dağlıq hissəsində Azərbaycan dövlətinin hakimiyyəti yox dərəcəsində idi. Bir tərəfdən müstəqilliyimizin başı üstünü almış real təhlükəni sovuşdurmalı, digər tərəfdən də erməni təcavüzündən  xilas olmalı, torpaqlarımızı müdafiə etməli, ərazi bütövlüyümüzü qoruyub saxlamalı, işğal olunmuş torpaqlarımızı azad etməliydik. Dövlətçiliyimiz məhv olmaq təhlükəsi ilə üzləşdiyi bir zamanda respublikamızın o zamankı səriştəsiz və qətiyyətsiz rəhbərləri belə vacib taleyüklü vəzifələrin öhdəsindən gələ bilmədilər. Məhz buna görə də, torpaqlarımızın xeyli hissəsi itirildi, ölkədə xaos, anarxiya baş alıb getdi, vətəndaş müharibəsi təhlükəsi yarandı, qardaş qırğını başlandı. Dövlətçiliyimiz və müstəqilliyimiz təhlükə qarşısındaydı. İqtidar nümayəndələri başlarını itirmişdilər, nə edəcəklərini belə bilmirdilər. Ölkəni idarə etmək qabiliyyətində olmayan AXC-Müsavat rejimi də Heydər Əliyevin hakimiyyətə ikinci qayıdışını reallaşdırmışdı. Müdrik xalqımız isə təkidlə, israrla Heydər Əliyevin Bakıya gəlməsini tələb edirdi. Xalqımızın elitasını, ziyalıları, müxtəlif təbəqələri birləşdirən

nümayəndə heyəti Naxşıvana getdi və bütün fəaliyyətini Azərbaycanın tərəqqisi və inkişafına həsr etmiş Heydər Əliyev bu çətin və çıxılmaz vəziyyətdə xalqın ona uzadılmış əlindən tutdu və ömrünün qalan hissəsini də bu yolda sərf edəcəyini bildirdi.

Beləliklə, Heydər Əliyev 1993-cü il iyunun 9-da Bakıya gəldi və iyunun 15-də Ali Sovetin sədri seçildi. Bu, elə bir dövr idi ki, respublikamız həm xaricdən, həm də daxildən sarsıdıcı zərbələrə məruz qalırdı. Ordu hissələrinin siyasi oyunlara qatılması, ölkədəki qeyri-sabit siyasi vəziyyətdən istifadə edən erməni quldurlarının yeni hücum əməliyyatları, qaçqın və məcburi köçkün ordusu, özbaşınalıq dövlətçiliyimizin sütunlarını laxlatmaqdaydı. Dünya şöhrətli siyasətçi, zəngin dövlətçilik ənənələrinə malik Heydər Əliyev bu dəfə də xalqın müdrikliyinə arxalandı, təhlükənin genişlənməsinə imkan vermədi və düzgün qərarları ilə Azərbaycan xalqını bəlalardan xilas etdi.

Ölkə daxilində ictimai-siyasi şərait bərpa olunduqca müstəqil respublikanın dövlət təsisatları yaradılmağa, qurulmağa başladı. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə ilk milli Konstitusiyamızın qəbulu olkədə genişmiqyaslı hüquqi islahatların həyata keçirilməsinə böyük imkanlar yaratdı. Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğuna başlandı.

Məhz ulu öndərin qətiyyətli xarici və daxili siyasəti nəticəsində Azərbaycan artıq dünya miqyasında tanınıb, beynəlxalq təşkilatlarda öz layiqli yerini tutub, öz sözünü cəsarətlə demək qüdrətindədir. Ümumilli liderimizin məyyənləşdirdiyi düzgün siyasi xətt respublikada qısa vaxtda ordu quruculuğunu möhkəmləndirmiş, güclü, mütəşəkkil ordunun yaradılmasına gətirib çıxarmışdır. Torpaqlarımızın bir hissəsinin düşmən tapdağı altında olduğu belə çətin durumda ordu quruculuğuna böyük diqqət yetirilməsi daxili siyasətin daha bir uğuru deməkdir.

Böyük öndər Heydər Əliyevin Azərbaycan üçün, xalqımız üçün gördüyü işləri sadalamaqla bitib tükənən deyil. Çünki, Azərbaycanın hər daşında, torpağında, quruculuq işlərində ulu öndərin əl izləri var, onun fəaliyyətinin uğurlu bəhrələrini hər yanda görmək mümkündür. O, bu gün sıralarımızda olmasa da, onun möhtəşəm işləri, əməlləri, misilsiz xidmətləri hamımıza bəllidir və gözümüz önündədir. Bu gün dövlətimizin idarəçilik sükanı başında ümumilli liderimiz Heydər Əliyevin yetirməsi, onun yaratdığı siyasi məktəbin davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev durur.

## II BÖLMƏ
## İki əsrin, iki minilliyin qovuşuğundakı müstəqil Azərbaycan Respublikası

Xalqımız keşməkeşli mübarizələr və qurbanlarla dolu tarixi bir yol keçmişdir. Bunların hamısının bir məqsədi, bir məramı olmuşdur: azadlıq, müstəqillik, xalq iradəsinin sərbəstliyi. XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti də məhz müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır. Öz müstəqilliyini bərpa edən ölkəmiz artıq demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoymuşdur. Ona görə də XX əsr xalqımızın yaddaşında dövlətçilik, müstəqillik, ərazi bütövlüyü uğrunda mübarizə əsri kimi qalacaqdır. Bu dövr ərzində nə qədər ağır və çətin sınaqlardan keçdik. XX yüzilliyin sonuna yaxın qarşılaşdığımız problemlər bəlkə də o sınaqların ən böyüyü, ən məsuliyyətlisi idi. Çünki burada söhbət ayrı-ayrı şəxslərin deyil, bütöv bir millətin taleyindən, azad və müstəqil yaşaya bilməsindən gedirdi. Son iki on ildə keçilən yol isə daha mürəkkəb olmuşdur.

Qeyd etdiyimiz kimi, 2020-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin iyirmi doqquzuncu ildönümü qeyd olunur. Bu illər ərzində demokratik, hüquqi və dünyəvi dövlətin qurulması xalqımızın tarixi nailiyyətidir. Çünki, azadlığı, suverenliyi,

müstəqil dövləti olmayan xalqın millətlər içərisində yaşamaq haqqı yoxdur. İyirmi beş illik inkişaf yolumuzun ən parlaq nəticəsi ondan ibarətdir ki, bu gün Azərbaycan, sözün əsl mənasında, artıq tam müstəqil ölkədir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cənablarının imzaladığı sərəncamı sizlər üçün təqdim edirik:

## Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikasının 1991-ci il oktyabrın 18-də Azərbaycan Xalq Cümhuriyyətinin varisi olaraq öz dövlət müstəqilliyini bərpa etdiyi tarixi gündən 29 il keçir. Müsəlman Şərqində ilk demokratik respublika olmuş Cümhuriyyətin bayrağını, himni və gerbini öz dövlət atributları kimi qəbul etməsi və 28 May gününün dövlət bayramı səviyyəsində qeyd edilməsi Azərbaycan Respublikasının 1918-ci ildə imzalanmış İstiqlal bəyannaməsinə və Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruculuğu sahəsindəki xidmətlərinə dərin hörmət və ehtiramının təzahürüdür. Əsrlər boyu müstəqillik arzusu ilə yaşamış xalqımız ayrı-ayrı dövrlərdə müxtəlif imperiyaların və böyük dövlətlərin tərkibində olmasına baxmayaraq, hər bir xalqın milli varlığının mahiyyətini təşkil edən amilləri – dilini, milli-mənəvi dəyərlərini və mədəniyyətini göz bəbəyi kimi qoruyub saxlamaqla yanaşı, dünya mədəniyyəti xəzinəsinə də misilsiz töhfələr vermişdir. Dövlət müstəqilliyimizin bərpası bizə azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşərək beynəlxalq hüququn subyektinə çevrilmək və demokratik, hüquqi, dünyəvi dövlət qurmaq imkanı yaratmışdır.

Ötən 29 il ərzində Azərbaycan xalqı dövlət quruculuğu prosesində ən ümdə amal, arzu və niyyətlərini gerçəkləşdirərək

bütün sahələrdə əldə etdiyi nailiyyətlərlə haqlı olaraq fəxr edə bilər. Uğurlu daxili və xarici siyasətimiz sayəsində dövlətçilik ənənələrimiz möhkəmlənmiş, iqtisadiyyatımız inkişaf etmiş, mədəniyyətimiz zənginləşmişdir. Müstəqil Azərbaycan Respublikası bu gün hər bir vətəndaşımız və xaricdə yaşayan soydaşımız üçün əsl qürur mənbəyidir.

1991-ci ildən etibarən müstəqillik yollarında ilk addımlarını atarkən Azərbaycan keçirdiyi dərin siyasi, iqtisadi və sosial böhranla yanaşı, Ermənistanın hərbi təcavüzü, azərbaycanlılara qarşı yürütdüyü etnik təmizləmə siyasəti və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi ilə üz-üzə qalmışdı. Yalnız ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı və apardığı müdrik siyasət nəticəsində ölkənin məhv olma təhlükəsinə, separatçılıq meyillərinə və başlanan vətəndaş müharibəsinə son qoyuldu, dövlətlə xalqın birliyi təmin edildi. İctimai-siyasi sabitliyin bərqərar olması, hərbi əməliyyatların dayandırılması və "Əsrin müqaviləsi"nin imzalanması bütün sahələrdə genişmiqyaslı islahatların başlanmasına zəmin yaratdı.

1995-ci ildə qəbul olunan Azərbaycan Konstitusiyası milli dövlət quruculuğunun bünövrəsini təşkil etməklə müasir dövlətin bütün qurum və təsisatlarının formalaşdırılmasında, hakimiyyət bölgüsü prinsiplərinin tam təşəkkül tapmasında, parlamentarizm ənənələrinin zənginləşdirilməsində mühüm rol oynamışdır. 2002-ci il 24 avqust, 2009-cu il 18 mart və 2016-cı il 26 sentyabr tarixli referendumlar Konstitusiyanın müəyyən maddələrinə əlavələri ilə dövlət quruculuğu sisteminin təkmilləşməsinə töhfələr vermişdir.

Bu gün müxtəlif yönümlü siyasi partiyaların, ictimai təşkilatların və çoxsaylı mətbu orqanlarının fəaliyyət göstərməsi, vicdan və söz azadlığının, vətəndaşların əsas hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil seçki və hüquq-məhkəmə sistemlərinin qurulması ölkədə müstəqillik illərində təşəkkül tapmış demokratik ab-havanın başlıca

göstəricilərindəndir. Qazanılan uğurlar müstəqilliyimizin möhkəmləndirilməsinə xidmət edərək BMT-nin bəyan etdiyi davamlı inkişaf məqsədlərinə nail olmaqda müstəsna əhəmiyyətə malikdir.

Dövlət neft strategiyasının həyata keçirilməsi ilə yanaşı bu illər ərzində ölkəmizdə müasir iqtisadiyyatın əsaslarının yaradılması, torpaq islahatlarının həyata keçirilməsi, sahibkarlığın inkişaf etdirilməsi, maliyyə-bank sisteminin qurulması, ticarətin liberallaşdırılması və əhalinin sosial müdafiəsinin təmin olunması istiqamətlərində mühüm layihələr gerçəkləşdirilmişdir. Keçid dövrünü uğurla başa vuran ölkəmiz iqtisadiyyatının həcmini bir neçə dəfə artıraraq bu gün davamlı inkişaf prinsiplərinə sadiq, güclü infrastruktur və inkişaf potensialına malik iqtisadiyyat qurmuşdur.

Dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının yüksək qiymətləndirdiyi iqtisadi duruma biz hələ də öz həllini tapmayan Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ağır fəsadları şəraitində nail olmuşuq. Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri beynəlxalq hüquq norma və prinsiplərinə uyğun olaraq həmin münaqişənin sülh yolu ilə həllinə yönəlmişdir. Bütün dövlətlər və beynəlxalq qurumlar tərəfindən qəbul olunan müvafiq qərarlara baxmayaraq, hələ ki Ermənistanın qeyri-konstruktiv mövqeyi sülhə nail olmağa imkan vermir.

Ölkəmizdə ordu quruculuğunun əsasını təşkil edən prinsip və normalar Azərbaycanın həm müdafiə potensialını, həm də dost və tərəfdaş dövlətlərlə əlaqələrini gücləndirmişdir. Müdafiə sənayesinin inkişafı Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsinə zəmin yaratmış və ordunun döyüş qabiliyyətini artırmışdır. Ermənistanın təxribatçı fəaliyyəti səbəbindən 2016-cı ilin aprel ayında cəbhədə cərəyan edən hadisələrin nəticələri Qafqazda ən güclü orduya malik olduğumuzu bir daha təsdiq etdi. Müstəqil Azərbaycan enerji sektorunun inkişafı istiqamətində mühüm irəliləyişlərə nail

olmuşdur. Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri və digər irimiqyaslı strateji layihələr ölkəmizin enerji ehtiyatlarını dünya bazarlarına çıxarmaqla Avropanın enerji təhlükəsizliyinin təminatında böyük əhəmiyyətə malikdir. Respublikamızda neft və qeyri-neft sektorunun yüksəlişi ümumi daxili məhsulun artmasına, güclü sahibkarlar zümrəsinin və orta təbəqənin yaranmasına təkan vermişdir. Ölkə üzrə sənaye zonalarının açılması, Bakı ilə yanaşı digər şəhərlərin də sənaye potensialının artırılması, texnoparkların və aqroparkların qurulması regionların böyük sürətlə inkişafını təmin etməyə imkan yaratmışdır. Ölkəmizin ərzaq təhlükəsizliyi təmin olunmuş, kənd təsərrüfatının və müvafiq infrastrukturun inkişafına böyük investisiyalar qoyulmuş, ərzaq və qeyri-ərzaq məhsullarının ixrac qabiliyyətinin artırılması istiqamətində mühüm addımlar atılmışdır.

Post-neft dövrünə qədəm qoymuş Azərbaycan iqtisadiyyatın bütün sahələrində ciddi islahatlar aparır. Ölkənin yol-nəqliyyat şəbəkəsi əsaslı şəkildə yenidən qurulur, dəmiryol nəqliyyatı müasirləşdirilir, Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizləri formalaşdırılır. Paytaxtla yanaşı bölgələrdə də beynəlxalq hava limanları istifadəyə verilmiş, müasir standartlara uyğun dəniz ticarət limanı fəaliyyətə başlamışdır. Yeni texnologiyalar əsasında tikilən sənaye müəssisələri metallurgiya, maşınqayırma, inşaat materiallarının istehsalı və digər sahələrin sürətli inkişafı üçün maddi-texniki baza yaradır.

Neft kapitalının insan kapitalına çevrilməsi strategiyasına uyğun olaraq humanitar sahələrin inkişafı istiqamətində gərgin iş aparılmışdır. Təhsil sisteminin daha da təkmilləşdirilməsinə dair tədbirlər həyata keçirilmiş, dünyanın mötəbər universitetlərində minlərlə Azərbaycan gəncinin təhsil alması üzrə Dövlət Proqramı gerçəkləşdirilmiş, yeni universitetlər açılmış, təhsildə özəl sektor formalaşmışdır.

Azərbaycan mədəniyyəti həm ölkə daxilində, həm də xaricdə irimiqyaslı layihələr çərçivəsində təmsil olunmaqdadır. Tikilən yeni məktəblər, müalicə ocaqları, muzeylər, olimpiya mərkəzləri, mədəniyyət müəssisələri və istirahət zonaları sosial həyatın yaxşılaşmasına xidmət edir. "ASAN xidmət" şəbəkəsi, ünvanlı sosial yardım, aztəminatlı ailələrin əlverişli şərtlərlə mənzillə təmin olunması və digər layihələr dövlətin sosial yönümlü siyasətinin göstəricisidir.

Şəhərlərimizin və regionlarımızın infrastrukturunun yeniləşməsi geniş vüsət alır. Bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilərək tarixi və müasir memarlığın harmonik inkişafının parlaq nümunəsi kimi qiymətləndirilir. Yaradılan müvafiq infrastruktur, istifadəyə verilən yeni otellər və bölgələrdə həyata keçirilən möhtəşəm abadlıq-quruculuq işləri turizmin uğurlu inkişafı üçün geniş perspektivlər açır.

Müstəqillik illərində gənclərlə bağlı siyasət uğurla gerçəkləşdirilir, onların ölkənin siyasi, iqtisadi və sosial-mədəni həyatında iştirakı gündən-günə genişlənir. Ölkəmizin idman sahəsindəki böyük nailiyyətləri gənc nəslin sağlam həyat tərzinə göstərdiyi diqqətin ifadəsidir. Gənclərimizin müxtəlif çempionatlarda və olimpiya oyunlarında qazandığı medallar, Rio-de-Janeyroda nümayiş etdirdiyi yüksək göstəricilər və Azərbaycanda keçirilən İlk Avropa Oyunlarındakı müvəffəqiyyətləri idman tariximizə həkk olunmuşdur.

Nüfuzu beynəlxalq miqyasda ilbəil möhkəmlənən Azərbaycan dünya ölkələri içərisində öz layiqli yerini tutmuşdur. Respublikamızda keçirilən mötəbər beynəlxalq sammit, forum, sərgi, müsabiqə və yarışlar beynəlxalq aləmdə qazandığımız böyük etimadın təzahürüdür.

Azərbaycan xalqı öz milli-mənəvi dəyərlərinə, yaradıcı potensialına, vətənpərvərliyinə və qurub-yaratmaq əzminə arxalanaraq, 29 il ərzində suveren dövlət çərçivəsində misilsiz inkişaf yolu keçmişdir. Müstəqil dövlət quruculuğu sahəsində Azərbaycan Respublikasının əldə etdiyi bu nailiyyətlərin

təbliğini, gənc nəsildə vətənpərvərlik ruhunun aşılanmasını və dünya azərbaycanlılarının öz tarixi vətənlərinə bağlılığının gücləndirilməsini təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü ölkəmizdə dövlət səviyyəsində təntənəli surətdə qeyd olunsun.

2. "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü ilə bağlı Tədbirlər Planı" təsdiq edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın ikinci bəndində nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etsin və Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 11 oktyabr 2016-cı il.

Beləliklə, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 29 ildönümü münasibətilə respublikamızın hər yerində olduğu kimi, kitabxanalarda, lisey və gimnaziyalarda, ümumtəhsil məktəblərində, muzeylərdə və s. yerlərdə bir sıra silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Belə tədbirlərin keçirilməsi F. Köçərli adına Respublika Uşaq Kitabxanasında da öz əksini tapmışdır. Bu tədbirlərin siyahısı geniş və rəngarəngdir. Tədbirlər planına müstəqilliyimizlə bağlı müxtəlif sərgiləri: kitab sərgisi, rəsm sərgisi, foto sərgi, əl işlərinin sərgisi, kitab icmallarını, oxucu konfranslarını, inşa, şeir, rəsm müsabiqələrini, ədəbi-bədii kompozisiyaları və s. daxil etmək olar. Həmçinin, kitabxanada böyük yaş qrub oxucular arasında sorğunun da keçirilməsi məqsədəuyğun olardı. İlk növbədə F.Köçərli adına Respublika Uşaq Kitabxanasında müstəqilliyimizin 29 ildönümü ilə bağlı sərginin

keçirilməsi vacibdir. Sərgidə Azərbaycan Respublikasının dövlət müstəqilliyi ilə bağlı nəşr olunan kitabları, proşuraları, dövrü mətbuatda çap olunan qəzet və jurnalları nümayiş etdirmək olar. Beləki, sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: “Müstəqillik yollarında”, Ad günün mübarək, Azərbaycan!”, Müstəqilliyimiz milli sərvətimizdir”, “18 oktyabr Dövlət Müstəqilliyi günüdür!”, “Ən böyük nailiyyətimiz əbədi müstəqilliyimizdir”, “Müstəqilliyimizin 29 ildönümü” və s. İndi isə “Müstəqilliyimiz milli sərvətimizdir”adlı sərginin sxemini nümunə üçün veririk:

1.Başlıq: **“Müstəqilliyimiz milli sərvətimizdir”.**

2. Azərbaycan Respublikasının üçrəngli bayrağı.

3. Müstəqilliyimizlə bağlı görkəmli insanların söylədikləri sitatlar:

4. Müstəqilliyimizlə bağlı nəşr olunmuş kitabların nümayişi.

1. Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası. I cild.
2. Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası II cild.
3. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar.
4. Azərbaycan Demokratik Respublikası Dövründə Ədəbiyyat.
5. Müstəqil Dövlətimiz və Parlamentimiz.

5. Şeir parçası

Gəl, əziz bayram,
Görüşək yenə.
Gül-çiçək səpim
Qədəmlərinə.

Böyükdür adın,
Böyükdür şanın.
Sənsən bağbanı
Bu gülüstanın!

**Sitatlar:**

Müstəqil Azərbaycan dövləti günü-gündən möhkəmlənəcək, inkişaf edəcək və müstəqilliyini heç zaman əldən verməyəcək.

**Heydər Əliyev,**
*Ümumilli lider*

Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması, onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir.

**Heydər Əliyev,**
*Ümumilli lider*

Müstəqil Azərbaycan on ildir yaşayır və bundan sonra on illər də yaşayacaq, əbədiyyətə qədər yaşayacaqdır.

**Heydər Əliyev,**
*Ümumilli lider*

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir.

**Heydər Əliyev,**
*Ümumilli lider*

Biz fəxr edirik ki, 29 il müstəqil dövlət kimi yaşayırıq., öz hesabımıza yaşayırıq, heç kimə borclu deyilik, heç kimdən asılı deyilik, müstəqilliyi hər şeydən üstün tuturuq, xalqımız azaddır, taleyimiz öz əlimizdədir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Bizim dövlətçilik tariximiz, dövlətçilik ənənələrimiz çox qədim və zəngindir. Ona görə də müstəqil dövlətimizi qurarkən biz dünya təcrübəsindən, ümumbəşəri dəyərlərdən bəhrələnməklə yanaşı öz dövlətçilik ənənələrimizə söykənmiş, ondan istifadə etmişik. Bu ənənələr bu gün Azərbaycanda yaşadılır, təkmilləşdirilir və inkişaf etdirilir.

**Seyfəddin Qəndilov,**
*Tarix elmləri doktoru, professor*

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında Müstəqilliyimizin 29 ildönümü münasibətilə orta və böyük yaş qrup oxucular arasında söhbətin keçirilməsi də məqsədəuyğun olardı. Beləki, kitabxanaçı söhbətə belə başlaya bilər.

Bildiyiniz kimi, ötən əsrin səksəninci illərin sonunda sovet imperiyası dağılmaq təhlükəsi ilə üzləşmişdi. Ölkə iqtisadi cəhətdən çökmüşdü. Milli respublikalarda azadlıq və müstəqillik hərəkatı baş qaldırmışdı. Xalqların azadlıq mübarizəsini dinc yolla nizamlaya bilməyən SSRİ rəhbərliyi silahdan istifadə etməyə məcbur olmuşdu. 1986-cı ildə Qazaxstanda, 1989-cu ildə isə Gürcüstanda xalq hərəkatı silah gücünə yatırılmışdı. Çoxlu insan məhv edilmiş, ondan qat-qat çoxu zindanlara salınmış, işgəncələrə məruz qalmışdı. Lakin xalqların azadlıq arzusu sönməmişdi...

Əziz uşaqlar, 1988-ci ildən başlayaraq soydaşlarımızın indiki Ermənistan ərazisindəki dədə-baba torpaqlarından kütləvi surətdə qovulması respublikamızda ciddi narahatlıq yaratmışdı. Düşmənlərimizin Azərbaycanın Dağlıq Qarabağ ərazisini Ermənistana birləşdirmək cəhdləri bu narahatlığı daha da artırmışdı. Bütün bunlar həm də Azərbaycanda xalq hərəkatının güclənməsinə səbəb olmuşdu. Sovet rəhbərliyi isə ermənilərin xalqımıza və ərazi bütövlüyümüzə qarşı yönəlmiş qanunsuz əməllərinin qarşısını almaq istəmədi. Bu, azadlıq hərəkatının daha da coşmasına gətirib çıxardı. İmperiya rəhbərliyi Azərbaycanda xalq hərəkatının güclənməsindən qorxuya düşdü.

Buna görə də 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə paytaxtımıza qoşun yeridildi və əhali gülləboran edildi. 20 Yanvar faciəsindən sonra xalqımız azadlığa gedən yoldan dönməyəcəyini bəyan etdi.

1991-ci ilin avqustunda sovet rəhbərliyində baş verən qiyam parçalanmaqda olan imperiyanı zor gücünə "sağlamlaşdırmaq", SSRİ-ni yenidən dirçəltmək məqsədi güdürdü. Lakin bu istəyin əksinə olaraq qiyam əslində imperiyanın dağılmasını daha da sürətləndirdi. Beləki, məhz həmin çevriliş cəhdindən 2-3 ay sonra bir sıra respublikalar müstəqilliklərini dünyaya bəyan etdilər, sovet rəhbərliyi isə bunun qarşısını ala bilmədi. 1991-ci il oktyabrın 18-də Azərbaycan eyni əsrdə ikinci dəfə öz müstəqilliyini, Azərbaycan Xalq Cumhuriyyətinin varisi olduğunu elan etdi...

Beləliklə, əziz uşaqlar bu gün biz sizinlə birlikdə Müstəqilliyimizin 29-ci ildönümünü qeyd edirik. Gəlin bir daha söyləyək, **"Ad günün mübarək, Azərbaycan!"**

Söhbətin sonunda kitabxanaçı uşaqlarla sual-cavab edir.
Kitabxanaçı əvvəlcədən hazırladığı anket-sorğusunu oxucular arasında paylayır.

1. Sual: 18 oktyabr ölkəmizdə hansı gün kimi qeyd olunur?
Cavab: 18 oktyabr ölkəmizdə müstəqillik günü kim qeyd olunur.

2.Sual: Müstəqil Azərbaycan Dövləti nə vaxt yaradılmışdır? Cavab: Müstəqil Azərbaycan dövləti ilk dəfə 1918-ci il mayın 28-də yaradılmışdır.

3.Sual: Müstəqil Azərbaycan dövləti neçə ay yaşadı?
Cavab: Müstəqil Azərbaycan dövləti təəssüf ki, cəmi 23 ay yaşadı.

4.Sual: Müstəqillik deyəndə nəyi başa düşürsünüz?
Cavab: Müstəqillik deyəndə azadlıq, müstəqillik, suverenlik başa düşülür.

5.Sual: Azərbaycan Xalq Cumhuriyyətinin Dövlət Rəmzləri hansılardır?

Cavab: Azərbaycan Xalq Cumhuriyyətinin əsas dövlət atributları-Dövlət bayrağı, Dövlət gerbi, Dövlət himni və Dövlət möhürüdür.

6.Sual: Azərbaycan Respublikasının Dövlət bayrağı nəyin rəmzidir?

Cavab: Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycan dövlətinin suverenliyinin rəmzidir.

7.Sual: Azərbaycan Respublikasının Dövlət Bayrağının üzərində hansı təsvirlər vardır?

Cavab: Bayrağın ortasında ağ rəngli aypara və səkkizguşəli ulduz vardır.

8.Sual:Bayrağın üzərində hansı rənglər var və bu rənglər nəyi ifadə edir?

Cavab: Azərbaycan bayrağının yuxarı hissəsində göy zolaq, aşağı hissəsində yaşıl zolaq, orta hissəsində isə qırmızı zolaq vardır.

Bu rənglər ayrı-ayrılıqda hər biri bir məna ifadə edir.

Mavi rəng-Azərbaycan xalqının türk mənşəli olmasını, türkçülük ideyası ilə bağlıdır.

Qırmızı rəng-müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə müasirləşməni ifadə edir.

Yaşıl rəng-islam sivilizasiyasına, islam dininə mənsubluğu ifadə edir.

9.Sual: Azərbaycan Dövlət Himninin musiqisi və sözləri kimə aiddir?

Cavab: Azərbaycan Dövlət Himninin musiqisi Üzeyir Hacıbəyov, sözləri Əhməd Cavada aiddir.

Sonda fəal oxuculardan biri Cəfər Cabbarlının Azərbaycan Bayrağına adlı şeirini söyləyir.

Buraxınız, seyr edəlim, düşünəlim, oxşayalım,
Şu sevgili, üç boyalı, üç mənalı bayrağı,
Mələklərin qanadımı üzərimə kölgə salan?

Nə imiş bu? Aman allah! Od yurdunun yarpağı.
Gök yarpaqlar, al çiçəklər, yalşıl otlar topasımi?
Xayır! Xayır! Çiçək solur, otlar yerdə tapdanır.
Fəqət bizim bayrağımız yucaları pək sevir.
Yıldızlardan, hilaldan da yüksəklərdə fırlanır.
Kölgəsində ay əyilib bu gözəli qucmada.
Qucaşaraq sevdiyilə yüksəklərə uçmada. Şu
görünüş bir ananın şəfqətinə oxşayır,
Düşündükcə duyğularmı, vicdanımi oxşayır.
Bu ay, yıldız boyaların qurultayı, nə demək?
Bizcə, böylə söyləmək:
Bu gög boya Moğuldan qalmış, bir türk
nişanı, Bir türk oğlu olmalı.
Yaşıl boya islamlığın sarsılmayan
imanı, Ürəklərə dolmalı,
Şu al boya azadlığın, təcəddünün
fərmanı, Mədəniyyət bulmalı.
Səkkiz uclu şu yıldız da səkkiz hərfli "Od yurdu"
Əsarətin gecəsitndən fürsət bulmuş quş kibi,
Səhralara uçmuşdur.
Şu hilalda türk bilgisi düzgün sevgi
nişanı Yurdumuzu qucmuşdur.
Allah, əməllərim edib şu bayrağa intiqal Birər-birər toğru
olmuş, b bir ad almış: istiqlal. Yürəgimdə bir dilək var, o da
doğru kəsilsin O gün olsun bir gög bayraq Turan üstə
açılsın. Kitabxanada yubileylə bağlı inşa, rəsm, şeir
müsabiqəsinin

keçirilməsi vacibdir. Kitabxanaçı rəsm, şeir, inşa müsabiqəsinin keçirilməsi ilə bağlı böyük bir elanı kitabxananın divarından asır. **"Xoşbəxt həyat qururuq"** adlı inşa, şeir və rəsm müsabiqəsində iştirak edən fəal oxucular müsabiqənin qalibləri elan olunur. Müsabiqədə iştirak edən qaliblər sonda kitabxananın rəhbərliyi tərəfindən hədiyyələrlə mükafatlandırılırlar. Həmçinin, müstəqilliyimizin 29-ci

ildönümü ilə bağlı rəsm müsabiqəsi də elan olunur. Rəsm müsabiqəsi əsasən orta yaş qrup oxucular arasında keçirilir. Yaxşı rəsm çəkmək bacarığı olan qaliblər 1-2-3 və həvəsləndirici mükafatlarla mükafatlandırılırlar.

Müstəqilliyimizin 29-ci ildönümü ilə əlaqədar F.Köçərli adına Respublika Uşaq Kitabxanasında şeir müsabiqəsinin keçirilməsi təqdirəlayiq olardı. Şeir müsabiqəsi uşaqların ən çox sevdiyi tədbirlərdən biridir. Çünki, uşaqlar belə tədbirlərdə özlərinin şeir demək bacarıqlarını nümayiş etdirirlər. Yuxarı sinif şagirdlərinin ifasında xalq şairi Məmməd Arazın **"Azərbaycan-Dünyam mənim"** adlı şeirini dinləyək.

***I oxucu:***
*Azərbaycan-qayalarda*
*bitən bir çiçək,*
*Azərbaycan-çiçəklərin*
*içində qaya.*
*Mənim könlüm bu torpağı*
*vəsf eləyərək,*
*Azərbaycan dünyasından*
*baxar dünyaya.*

*Azərbaycan-mayası nur,*
*qayəsi nur ki....*
*Hər daşından alov dilli ox ola bilər.*
*"Azərbaycan!"-deyiləndə ayağa dur*
*ki, Füzulinin ürəyinə toxuna bilər.*

*Oğulları Kür gəzdirər*
*biləklərində, Oğulların göz atəşi*
*gözəl əridir.*
*Azərbaycan səhərinin*
*bəbəklərində Qütb ulduzu,*
*dan ulduzu gözəlləridir.*

***II oxucu:***
*İllər olub-kürrələrdə dəmir olmuşuq,*
*Sərhədlərdə dayanmışıq küləkdən ayıq.*
*Od göləndə, Buz çöləndə gəmi olmuşuq,*
*Biz Bakının ilk səasət carçılarıyıq. Min*
*illərlə zülmətlərə yollar açıqdı,*
*Dalğalandı Sabirləri ümman dünyası,*
*Azərbaycan qatarı da yollara çıxdı*
*Dağılanda Qoca Şərqin duman dünyası.*
*Azərbaycan-mayası nur,Qayəsi nur ki...*
*Hər daşından alov dilli ox ola bilər.*
*"Azərbaycan!"-deyiləndə ayağa dur ki,*
*Ana yurdun ürəyinə toxuna bilər.*

Respublikamızın bütün mədəniyyət ocaqlarında olduğu kimi, F.Köçərli adına Respublika Uşaq Kitabxanasında bir çox silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur ki, bunlardan biri də kitab icmalıdır. Kitab icmalının keçirilməsində məqsədimiz oxucular arasında Müstəqilliyimizlə bağlı nəşr olunan bir çox kitabların icmalını etməkdir. Bu mövzuda nəşr olunan kitabların bir neçəsini misal göstərmək olar. Redaktoru Murtuz Ələsgərov olan "Müstəqil Dövlətimiz və Parlamentimiz", Ramiz Mehdiyevin "XXI əsrdə Milli Dövlətçilik", Dilarə Seyidzadənin "Azərbaycan XX əsrin əvvəllərində: Müstəqilliyə aparan yollar"və iki cildli "Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası" və s. Biz bu gün "Müstəqil Dövlətimiz və Parlamentimiz", "XXI əsrdə milli dövlətçilik" adlı kitabların icmalını sizinlə birlikdə keçirəcəyik. Ən əvvəl "Müstəqil Dövlətimiz və Parlamentimiz"adlı kitabın birinci səhifəsində yer alan Azərbaycan Respublikasının ulu öndəri Heydər Əliyevin fərmanına nəzər salaq.

Bildiyiniz kimi, bu il Azərbaycan xalqının həyatında əlamətdar tarixi hadisənin-Azərbaycanın dövlət müstəqilliyinin

bərpa edilməsinin 29 ili tamam olur. 1991-ci il oktyabrın 18-də "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edilməsi ilə Azərbaycan tarixinin yeni bir dövrü müstəqil inkişaf dövrü başlandı.

Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini əldə etməsi keçmiş SSRİ-də və bütün dünyada 80-ci illərin ortalarından başlayaraq gedən icyimai-siyasi proseslərin labüd nəticəsi idi. Bu obyektiv tarixi gerçəklik SSRİ-nin dağılmasına, Kommunist Partiyasının tarix səhnəsindən çəkilməsinə və nəticə etibarilə müttəfiq respublikaların hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxardı. Bunun ardınca yeni müstəqil dövlətlərin, eləcə də Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması beynəlxalq normalarının qanuni təzahürü oldu.

Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir. Müstəqillik yoluna qədəm qoymuş Azərbaycan Respublikasının da qarşısında yeni tarixi inkişaf mərhələsində dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, əhalinin təhlükəsizliyinin və rifahının təmin edilməsi kimi taleyüklü, mühüm tarixi vəzifələr dururdu. Bütün bunlar ardıcıl, məqsədyönlü, düşünülmüş daxili və xarici siyasət kursunun hazırlanıb həyata keçirilməsini və bu məqsədlə ölkənin intelektual və sosial-iqtisadi potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edirdi.

Beləliklə, kitabda bir çox fərmanlarla yanaşı, Heydər Əliyevin sitatları da yer almışdır. İcmalını keçirəcəyimiz ikinci kitab "XXI əsrdə milli dövlətçilik" adlı kitabdır. Kitabın əsas mövzu və qayəsini dövlətçiliyin müasir mərhələdə inkişaf problemləri təşkil edir. Cəmiyyətdə mövcud olan mürəkkəb

siyasi və sosial problemlər, iqtidar-müxalifət münasibətlərinin təhlili, demokratik inkişaf yoluna qədəm qoyan dövlətin qarşısında duran aktual məsələlər kitabda öz əksini tapmışdır.

Kitabda araşdırılan problemlər içərisində 2002-ci ilin 24 avqustunda Azərbaycan Respublikasının Konstitusiyasına edilən dəyişikliklər, XX əsrin sonu-XXI əsrin əvvəllərində yeni dünya nizamı, milli ideya, ölkənin demokratik inkişafı, müxalifətlə əlaqədar olan və bu gün Azərbaycan cəmiyyətini düşündürən çox mühüm məsələlər vardır.

Kitab filosof, tarixçi alim, politoloqlar, habelə yenidən müstəqillik qazandığımız dövrdən indiyədək respublikamızda baş vermiş ən mühüm ictimai-siyasi hadisələr barədə geniş və obyektiv məlumat almaq istəyən hər bir oxucu üçün nəzərdə tutulmuşdur.

"Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası" adlanan üçüncü kitabın işıq üzü görməsi müstəqil Azərbaycan Respublikasının həyatında mühüm hadisədir.
Ensiklopediya Azərbaycan Xalq Cumhuriyyəti tarixinin bütün sahələrini əhatə edən ilk fundamental elmi soraq əsəridir.

İki cilddən ibarət olan Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyasının səhifələrində Azərbaycan xalqının istiqlal mübarizəsi və ictimai fikir tarixinin ən mühüm məqamlarını,azadlıq hərəkatının görkəmli nümayəndələrinin həyat və fəaliyyətini, Azərbaycan Xalq Cumhuriyyətini doğuran tarixi şəraiti, Cumhuriyyət xadimlərinin həyat və mübarizəsini, Azərbaycan xalqına qarşı həyata keçirilən kütləvi soyqırımlarını, Qafqaz İslam Ordusunun xilaskarlıq əməliyyatlarını, böyük dövlətlərin və qonşu ölkələrin Azərbaycanla bağlı qəsbkarlıq planlarını, Cumhuriyyət parlamenti və Hökumətinin fəaliyyətini, dövlət quruculuğu, xarici siyasət, ordu quruculuğu və ölkənin ərazi bütövlüyü uğrunda mübarizəni, ictimai-siyasi, sosial-iqtisadi, mədəni-maarif həyatını, xarici dövlətlərdəki Azərbaycan diplomatik nümayəndəliklərinin fəaliyyətini, habelə Cumhuriyyətin süqutundan sonra istiqlal ideallarını

yaşadan milli hərəkat, siyasi mühacirət və s. məsələləri işıqlandıran 1500-ə qədər termin-məqalə verilir.

Kitabxanada keçiriləcək tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecə əsasən iki hissədən ibarət olur. Birinci hissədə tədbirdə iştirak edən qonaqların çıxış və məruzələri dinlənilir. İkinci hissədə isə Müstəqilliyimizlə bağlı bir çox vidolentlər, müxtəlif slaydlar nümayiş olunur. Həmçinin təbbirin bədii hissəsində müxtəlif şeir, və musiqilər də səslənir. Qeyd etdiyimiz kimi, tədbir bir çox başlıqlar altında keçirilə bilər. İndi isə **"Ən böyük nailiyyətimiz əbədi müstəqilliyimizdir"** adlı ssenarini sizə təqdim edirik. Tədbir Azərbaycanın Dövlət himni ilə başlayır. Səhnəyə üçrəngli Azərbaycan bayrağı gətirilir. Səhnə bayram əhval-ruhiyyəsi ilə bəzədilir. Bir çox sitatlar səhnənin divarından asılır. Məsələn: "Müstəqillliyimiz əbədidir", İnsanlara hüriyyət, millətlərə istiqlal", "Haqq verilməz, alınar!","Bir daha yüksələn bayraq, bir daha enməz" və s. Həmçinin tədbirin qonaqlarına Müstəqilliyimizin 29-ci ildönümü münasibətilə nəşr olunmuş proşuralar, biblioqrafiq tövsiyyələr, foto albomlar və s. paylanılır. Tədbiri aparıcı açıq elan edir:

*Oxu, dodağım mənim!!!*
*Alış ocağım mənim!!!*
*İstiqlal havasını,*
*xoşbəxtlik nəğməsini*
*Ürəkdə yanan işıq,*
*damarda qan oxusun!*
*Ölməz Əhməd Cavadın*
*"Azərbaycan şeirini*
*Ölməz Səməd Vurğunun*
*"Azərbaycan" şeirini*
*Azərbaycan oxusun!!!*
*Azərbaycan oxusun!!!*

*Xalq artisti R.Behbudovun ifasında "Azərbaycan" mahnısı səsləndirilir.*

**I aparıcı:** Əziz və hörmətli qonaqlar! Hamınızı bu əziz bayramda xoş gördük. Bildiyiniz kimi, xalqımız keşməkeşlı mübarizələr dolu tarixi bir yol keçmişdir. Bunların hamısının bir məqsədi, bir məramı olmuşdur: azadlıq, müstəqillik. XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti də məhz müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır. Öz müstəqilliyini bərpa edən ölkəmiz artıq demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoymuşdur. Ona görə də XX əsr xalqımızın yaddaşında dövlətçilik, müstəqillik ərazi bütövlüyü uğrunda mübarizə əsri kimi qalacaqdır. Bu dövr ərzində nə qədər ağır sınaqlardan keçdik. XX yüzilliyin sonuna yaxın qarşılaşdığımız problemlər bəlkə də o sınaqların ən məsuliyyətlisi idi. Çünki, burada söhbət ayrı-ayrı şəxslərin deyil, bütöv bir millətin taleyindən, azad və müstəqil yaşaya bilməsindən gedirdi.

**II aparıcı:** Ermənistan tərəfindən elan edilməmiş müharibə nəticəsində ərazimizin 20 faizinin işğal olunması, bir milyona yaxın qaçqın və məcburi köçkünlər, işsizlər ordusu, ölkə daxilindəki qeyri-sabitlik, ayrı-ayrı şəxslərin tabeliyində olan silahlı dəstələr, ölkəni parçalamağa çalışan xarici və daxili düşmənlərin məkrli niyyətləri müstəqillik yolunda kövrək addımlarını atan gənc dövlətimizi hər an məhv olmaq təhlükəsi qarşısında qoyurdu.

*(Sənnəyə oxucular daxil olur. Onlar Məmməd Arazın* ***Bizi Vətən çağırır*** *adlı şeirini söyləyirlər.)*

***I oxucu:***

*İndi bizim ölümlə,*
*Çarpışan çağımızdı.*
*Ölümün boğazından,*
*Yapışan çağımızdı.*

*Ölümlə tərcümansız*
*Danışan çağımızdı.*
*Qılınc qap, Vətən oğlu,*
*Bizi Vətən çağırır!*

*Bu, ölüm qan yoludur,*
*Ölümdən, qandan keçir.*
*Bir qolu da qıvrılıb*
*Azərbaycandan keçir.*

*Dövran bizdən bacalır,*
*Şöhrət bizdən yan keçir.*
*Qılınc qap, Vətən oğlu,*
*Bizi Vətən çağırır!*

***II oxucu:***
*Bu yolda əyilənə:*
*"Ölüm haqdı", deyirik.*
*Əbədi məzarımız*
*Bu torpaqdı, deyirik.*
*Vətən göyü dəyişməz*
*Göy bayraqdı, deyirik.*
*Qılınc qap, Vətən oğlu,*
*Bizi Vətən çağırır!*

*Bu, səhra məhkəməsi,*
*Bu, onun qərarıdı:*
*"Bircə addım arxada*
*Son ümid divarıdı!"*
*Bu yurdda yaşamağa*
*Haqqı yox, fəraridi!"*
*Qılınc qap, Vətən oölu,*
*Bizi Vətən çağırır!*

***III oxucu:***
*Gücünə qəzəbini,*
*Zəhmini də qata bil,*
*Düşmənin marağında*
*Pələng kimi yata bil. Bu*
*dağları baba bil, Bu*
*daşları ata bil! Qılınc*
*qap, Vətən oğlu, Bizi*
*Vətən çağırır! Bizi*
*Vətən çağırır!!!*

**I aparıcı:** Ulu xaqımızın böyük dövlətçilik ənənələri olmuşdur. Bizim eradan əvvəl Manna, Midiya, Atropatena kimi qədim antik azəri dövlətləri xalqımızın sivilizasiya tarixindəki şöhrətindən xoş müjdələr verir. Sonrakı dövrlərdə Xürrəmilər, Ağqoyunlu, Qaraqoyunlu, Şirvanşahlar, Səfəvilər dövlətləri, onların xalq və millət yolundakı mübarizəsi bizim eranın müəyyən dövrlərində, xüsusilə orta əsrlər tariximizdə silinməz izlər buraxmışdır. Təkcə səfəvilər dövlətinin ərazisi 1 milyon 200 min kvadratkilometr olmuşdur. Bu gün bizlərə çatan hazırki Azərbaycan ərazisi isə 86,minkvadrat kilometrdir. Onun da 20 faizi işğal altındadır. Bu fakt göstərir ki, son yüzilliklər ərzində Azərbaycanın başı nə qədər müsibətlər çəkmişdir. Xain qonşu dövlətlər tərəfindən onun

torpaqları zaman-zaman parça-parça edilərək zorla zəbt olunmuş, müstəqil dövlətçiliyi, öz iradəsini ifadə etmək haqqı qəddarlıqla əlindən alınmışdır.

Lakin aparılan qanlı təcavüzlər, müharibə və münaqişələr xalqımızın yaşamaq əzmini sındıra bilməmişdir. Və nəhayət ki, yüz illər boyunca yaşamaq hüququ əlindən alınmış xalqımız 29 il öncə yəni 18 oktyabr, 1991-ci ildə “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktının qəbulu ilə Azərbaycanın müstəqilliyini bəyan etdi.

Bu, xalqın iradəsinin gerçəkləşməsi, bir millətin öz müqəddəratını həll etmək haqqının özünə qaytarılması, milli varlığının təsdiqi idi. İndi müstəqilliyimizin siyasi və iqtisadi sütunları getdikcə möhkəmlənir. Xalqın öz dövlətçiliyi sarıdan heç bir narahatçılığı yoxdur. Müstəqilliyin taleyini müəyyənləşdirən əsas amillər qorunub saxlanır, inkişaf etdirilir.

Xalqımızın Qurtuluş mübarizəsinə başçılıq edən dahi dövlət xadimi Heydər Əliyevin gecəli-gündüzlü yorulmaz səyləri nəticəsində həm Azərbaycanımızın daxili, həm də xarici siyasətində əsaslı dönüş yaranmışdır. İndi müstəqil dövlətimizi dünyanın hər yerində tanıyırlar. Xalqımızın dahi oğlu Heydər Əliyevə dünyanın böyük siyasət adamları da dərin hörmət bəsləyirlər. Dünyanın bir çox dövlətlərinin paytaxtlarında beynəlxalq təşkilatların binaları qarşısında Üçrəngli dövlət bayrağımız əzəmətlə dalğalanır. Bu bayraq həm də tarixi Azərbaycan torpaqlarında yaşayan həmvətənlərimizin, bütün dünya azərbaycanlılarının həmrəylik və birlik bayrağıdır. 40 milyonluq böyük Azərbaycan xalqı indi bu bayraq altında birləşir. İstiqlal döyüşlərində şəhid olmuş qəhrəman Vətən övladlarının qanı bahasına qazanılmış azadlığımızın, müstəqilliyimizin müqəddəs simvolu olan Üçrəngli, ay-ulduzlu bayrağımız altında!

Sonda oxucular Üçrəngli Azərbaycan Bayrağını səhnəyə gətirirlər.

***(Oxucular Ənməd Cavadın Milli Bayrağımıza adlı şeirini söyləyirlər)***

*Türküstan elləri öpüb alnını,*
*Söyləyir dərdini sənə, bayrağım! Üç*
*rəngin əksini Quzğun dənizdən*
*Ərməğan yolla sən yara, bayrağım!*
*Gedərkən Turana, çıxdın qarşıma.*
*Kölgən dövlət quşu, qondu başıma.*
*İzin ver gözümdə coşan yaşıma,*
*Dinlətsin dərdini aha, bayrağım.*

*Qəli xan soyundan aldığın rəngi,*
*Qocamış il xanla müsəlman bəyi.*
*Elxanın övladı dinin dirəyi,*
*Gətirdin könlümə səfa, bayrağım.*

*Köksümdə tufanlar gəldim irəli,*
*Öpdüm kölgən düşən mübarək*
*yeri. Allahın ulduzu, o gözəl pəri*
*Sığınmış qoynunda aya, bayrağım!*

# NƏTİCƏ

Müstəqilliyimizin 29 illik şərəfli tarixini qeyd etdiyimiz bir vaxtda suveren ölkəmizə qarşı bütün bu illər ərzində davam edən, məhz müstəqilliyimizə qəsd kimi qiymətləndirə biləcəyimiz Daglıq Qarabağ probleminə son qoyulması ən ülvi arzumuzdur. Dörddə bir əsr davam edən bu ədalətsiz tarixi faciəyə son qoyulmağına 2016-cı ilin aprel hərbi əməliyyatlarından sonra əminliyimiz xeyli artıb. Müstəqil Azərbaycan bütün dünyaya sübut etdi ki, torpaqlarımızı işğaldan azad etməyə bizim həm siyasi iradəmiz, həm də hərbi qüdrətimiz var. Amma, Azərbaycan Prezidentinin dönə-dönə bəyan etdiyi kimi, biz hərb yox, sülh istəyirik, ədalətin qalib gələcəyinə inanırıq.

Müstəqilliyimizin əbədiyyəti və qorunması dövlətimizin geosiyasi baxımından onunla qonşu olan böyük dövlətlərlə balanslaşmış siyasət aparmasından asılıdır. Azərbaycan Prezidenti İlham Əliyev Rusiya, İran və Türkiyə ilə siyasi cəhətdən etibarlı, tarixən düzgün və müstəqil Azərbaycanın milli və dövlətçilik mənafelərinə uyğun xarici siyasət aparır. Bu da Qafqaz regionunda lider dövlət kimi Azərbaycanın nüfuzunu və qüdrətini təmin edir.

Müstəqil dövlət kimi Azərbaycan özünü dünyaya yeni yöndən, novator paramentlərlə təqdim etməyə nail olur.
Bu istiqamətdə ölkəmizdə nüfuzlu tədbirlər keçirilib, bu sahədə elmi-siyasi fikir formalaşıb. Multikulturalizm ta qədimdən biz türklərin həyat tərzidir, 1300 illiyini qeyd etdiyimiz “Kitabi-Dədə Qorqud” eposundan, dahi Nizaminin” “Yeddi Gözəl” dastanından tutmuş bugünədək ədəbiyyatımızda multikulturalizm örnəkləri özünə yer alıb. Bu onu göstərir ki, ölkəmiz tarixən bəşəri dəyərlər diyarı olmuşdur. Bütün millətlər, dinlər, mədəniyyətlər müstəqil Azərbaycanda sərbəst fəaliyyət göstərə, dic yanaşı yaşaya bilər.

Bu şərtlə ki, dini ekstremizmə yol verilməsin, milli-mənəvi və dövlətçilik mənafelərinə zərər vurulmasın.

Millət və dövlət müstəqilliyimizin qoşa qanadıdır. Müstəqillik münəvvər Azərbaycan gəncliyinin milli idealı, xoşbəxt gələcək arzusudur.

Müstəqilliyimiz həyata keçmiş arzumuz, tarixə dönmüş milli qürurumuz, bir millət kimi dünyada özünü-təsdiqliyimizin əbədi ifadəsidir. Bu gün Azərbaycan müstəqilliyinin 29 illiyini həm siyasi, həm iqtisadi sahədə böyük tarixi nailiyyətlərlə qarşılayır.

**Ədəbiyyat siyahısı**
**Kitablar:**
## *Latın qrafikası ilə*

Ağaoğlu Ə. Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2007. - 392 s. - (Müasir Azərbaycan ədəbiyyatı). - Kitab

Ağaoğlu Ə. Sərbəst insanlar ölkəsində : Tarixi ədəbiyyat. - Bakı : Tutu Uşaq Mədəniyyət Mərkəzi, 2001. - 80 s.

Akalıın G. Türk düşüncə və siyasi həyatında Əhməd Ağaoğlu. - Bakı : AzAtam, 2004. - 164 s. : foto.

Andriyanov V. Heydər Əliyev. - Bakı : Nurlan, 2008. - 560 s. : rəngli foto, foto. - (Görkəmli Adamların Həyatı : bioqrafik silsilə ; 1205 (1005) buraxılış).

Axundova E. Heydər Əliyev. Şəxsiyyət və zaman. I hissə : 1923-1969. - Bakı : Ozan, 2007. - 352 s. : foto.

Axundova E. Heydər Əliyev. Şəxsiyyət və zaman. II hissə : 1969-1982. - Bakı : Ozan, 2007. - 784 s.

Axundova E. Heydər Əliyev. Şəxsiyyət və Zaman. Kreml beşilliyi. III hissə : 1982-1990. - Bakı : Ozan, 2009. - 804, [48] s.

Axundova E. Heydər Əliyev. Şəxsiyyət və Zaman : həyat və fəaliyyətinin xronikası. IV hissə : 1969-1989. – Bakı : Ozan, 2008. – 328 s.

Azərbaycan 1994. Milli dövlətçilik sınaq qarşısında : 1-ci hissə / Azərbaycan Respublikası Prezident Aparatı. - Bakı : [s. n.], 2002. - 472 s.

Azərbaycan tarixi : 7 cilddə. VII cild : 1941-2002-ci illər. - Bakı : Elm, 2008. - 608, [80] s. : rəngli foto, portr.

(Azərbaycan dili və tarixi).
Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası : 2 clddə. I cild. - Bakı : Lider nəşriyyatı, 2005. - 440 s.

Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası : 2 cilddə. II cild. - Bakı : Lider nəşriyyatı, 2005. - 472 s. : il., xəritə, portr., rəngli şək.

Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti : Sənədlər məcmuəsi. - Bakı : "Garisma" MMC, 2009. - 352 s. : portr. Əfəndiyev T. Heydər Əliyev mədəniyyət və əbədiyyət = Heydar Alıyev Culture and eternity : siyasət - Bakı : Təhsil, 2013. - 128 s.

Əhmədova S. Heydər Əliyevin dil siyasəti : monoqrafiya. - Bakı : İncə nəşriyyat evi, 2010. - 231 s.

Əkbərov R. Azərbaycanın dövlət və hüquq tarixi : qədim, orta əsrlər və müasir dövrdə. - Bakı : Qanun, 2009. - 604 s.

Əliyev Q. Müasir Azərbaycanın banisi, xilaskarı, qurucusu. - Bakı : Şəms, 2006. - 520 s.

Əliyev T. Azərbaycanı dünyaya tanıdan Böyük İnsan : Heydər Əliyev-90. - Bakı : Oğuz Çap, 2013. - 226 s.

Həmzəoğlu R. Heydər Əliyev və Azərbaycan təhsili. - Bakı : Vektor, 2007. - 300 s.

Həsənova M. Heydər Əliyev və Azərbaycan dövlətçiliyində qadın məsələsi. - Bakı : Elm, 2001. - 80 s.

Heydər Əliyev - müstəqil Azərbaycanın neft emalı sənayesinin banisidir = Heydar Aliyev is the founder of oil refining industry of independent Azerbaijan. - Ankara : [s. n.], 2003. - 145 s.

Heydər Əliyev mədəni irsimizin keşiyində. I kitab. - Turkiye : Nurol printing & Packaging industry inc., 2001. - 439 s.

Heydər Əliyev mədəni irsimizin. II hissə. - Turkiye : Nurol printing & Packaging industry inc., 2001. - 456 s. : rəngli şək. Heydər Əliyev və mədəni irs = Heydar Alıyev and cultural herıtage. - Bakı : [s. n.], 2014. - 200 s. - Azərbaycan və ingilis dillərində. - (albom).

Heydər Əliyevin dil siyasəti : rəsmi sənədlər. - Bakı : Şirvannəşr, 2009. - 133 s.

Heydər Əliyevin Neft Strategiyası. Azərbaycanın Müstəqillliyi və Rifahı Naminə. I hissə. - Turkiye : Nurol printing & Packaging industry inc., 2001. - 496 s.

Hüseynova L. Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri : Müstəqillik dövrü. - Bakı : Təhsil, 2011. - 216 s.

İbrahimov İ. Vətəndaş və tarix : Tarixin olaylarında. - Bakı : Qanun, 2009. - 720 s.

Qasımlı M. Heydər Əliyev-İstiqlala gedən yol (1969-1987-ci illər). - Bakı : Bakı Universiteti Nəşriyyatı, 2006. - 608 s.

Qəhrəmanlı N. Nəsib bəy nümunəsi : Məktublar, məqalələr, çıxışlar və haqqında yazılar. - Bakı : Nurlan, 2008. - 263 s. : rəngli foto, fot. - Azərbaycan Xalq Cümhuriyyətinin 90 illiyinə həsr olunur.

Quliyeva N. Müstəqillik illəri Azərbaycan ailəsi. - Bakı : Elm, 2006. - 93 s.

Mahmudov Y. Heydər Əliyev ideyalarının zəfər yürüşü. - Bakı : Təhsil, 2011. - 608 (548+60) s.

Mehdiyev R. Azərbaycan: Tarixi irs və müstəqillik fəlsəfəsi. - Bakı : Azərbaycan Milli Ensiklopediyası, 2001. - 276 s.

Mehdiyev R. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. - Bakı : CBS Polygraphic production, 2006. - 583 s. : rəng.foto.

Mirəhmədov Ə. Əhməd bəy Ağaoğlu. - Bakı : Ərgünəş, 2014.

264 s.

Mirələmov H. Amalın işığında : Publisistik düşüncələr, portret cizgiləri, müsahibələr. - 272 s.

Mirələmov H. Bir günəş var : Tarixi-publisistik düşüncələr. - Bakı : Səda, 2004. - 240 s.

Mirələmov H. Həqiqət : Publisistik düşüncələr. - Bakı : Azərbaycan, 2003. - 448 s. : rəngli foto.

Mirələmov H. Millətin atası : Publisistik düşüncələr, tarixi esselər, məktublar. - Bakı : Azərbaycan, 2004. - 288 s.

Mirzə V. Azərbaycan dövlətçiliyinin qoşa qanadı. II kitab. - Bakı : Təhsil, 2006. - 344 s.

Mirzəyev R. Heydər Əliyev Azərbaycanın müasir neft emalı sənayesinin yaradıcısıdır. - Bakı : [s. n.], 2001. - 124 s.

Mirzəzadə R. Azərbaycanı dünyaya saydıran insan : məqalə və müsahibələr. - Bakı : Göytürk, 1998. - 346 s. : rəngli foto.

Müstəqillik dövrünün dramaturgiyası : Teatr dramaturgiyasında mövzu, struktur, üslub və janr problemləri. - Bakı : Nağıl evi, 2005. - 216 s.

Müstəqillik yolunda yanan işıqlar. - Bakı : Təhsil, 2004. - 342 s.

Müstəqilliyimizin memarı. I kitab. - Bakı : Yazıçı, 2010. - 296 s.

Nazimoğlu R. Azərbaycan millətinin əvəzolunmaz lideri. - Bakı : Araz, 2006. - 104 s.

Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. - Bakı : Şərq-Qərb, 2002. - 172 s.

Rəsulzadə M. Əsərləri (1903-1909). I cild. - Bakı : Təhsil, 2014. - 480 s. - Azərbaycan Respublikasının Prezidenti İlham

Əliyevin "Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqinda" 22 noyabr 2013-cü il tarixli Sərəncamına əsasən çap olunmuşdur.

Rəsulzadə M. Əsərləri (1909-1914). II cild. - Bakı : Təhsil, 2014. - 528 s. - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqinda" 22 noyabr 2013-cü il tarixli Sərəncamına əsasən çap olunmuşdur.

Rəsulzadə M. Əsərləri : (1915-1916). III cild. - Bakı : Təhsil, 2014. - 613 s. : foto.

Rəsulzadə M. Əsərləri : (1917-1918). IV cild. - Bakı : Təhsil, 2014. - 416 s. : foto.

Rəsulzadə M. Əsərləri : (1918-1920). V cild. - Bakı : Təhsil, 2014. - 439 s. : foto.

Rəsulzadə M. Əsərləri. - Bakı : Qələm, 2013. - 464 s.
Rəsulzadə M. Milli birlik : tarixi ədəbiyyat. - Bakı : Çıraq, 2009. - 176 s.

Seyidov Ə. Heydər Əliyev və Azərbaycan Respublikasının Konstitusiyası : dərs vəsaiti. - Bakı : UniPrint, 2009. - 256 s.

Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində. Müstəqilliyə aparan yollar. - Bakı : OKA ofset, 2004. - 348 s.
Sofiyev X. Şərq-Qərb mədəniyyətləri və Əhməd bəy Ağaoğlu. - Bakı : Ocaq, 2004. - 240 s. : foto.

Şüküroğlu L. Cümhuriyyət hökuməti resressiya məngənəsində. I cild. - Bakı : Şirvannəşr, 2000. - 296 s. : foto. - Azərbaycan dilində.

Şükürov S. Millət atası. - Bakı : Təhsil, 2000. - 208 s.

Yaqublu N. Bakının qurtuluşu : (Bakının qurtuluşunun 90 illiyinə). - Bakı : Adiloğlu, 2008. - 256,[48] s.

Yaqublu N. Məhəmməd Əmin Rəsulzadə (1884-1955) : Azərbaycan Xalq Cümhuriyyətinin banisi. Azərbaycan Milli Qurtuluş Hərəkatının ideoloqu = Mehemmed Amin Rasulzade : Founder of Azerbaijan Democratic Republic/ Ideologist of Azerbaijani National Liberation Movement. - Bakı : Mütərcim, 2014. - 104 s. - Azərbaycan və ingilis dillərində.

Yaqublu N. Məhəmməd Əmin Rəsulzadə ensiklopediyası. - Bakı : "OL" MMC, 2013. - 506 s.

***Kiril qrafikası ilə***

Azərbaycan Cümhuriyyəti.(1918-1920). - Bakı : Elm, 1998.- 335 s.

Azərbaycan Demokratik Respublikası. - Bakı: Azərnəşr, 1992.- 192 s.

Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. – Bakı : Azərnəşr, 1992. - 277 s.

Çəmənzəminli Y. V. Xarici siyasətimiz. – Bakı : Azərnəşr, 1993. - 51 s.

Çıraqzadə V. İstiqlal yollarında. – Bakı : Azərnəşr, 1992. -82 s. Elçin. Məmməd Əmin Rəsulzadə : oçerk. – Bakı : Şərq-Qərb, 1994. - 22 s.

Hacıyev H. İstiqlalın əzablı yolu.- Bakı : Azərnəşr, 1996.- 168 s.

Həsənov C. Ağ ləkələrin qara kölgəsi. – Bakı : Gənclik, 1991. - 308 s.

Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). – Bakı : Azərnəşr, 1993. - 362 s.

Qurban T. Dönməzlik. – Bakı : Şirvannəşr, 1997.-114 s.

Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. – Bakı : Elm, 1990. - 94 s.

Nəzirli Ş. Cümhuriyyət generalları. – Bakı : Hərbi nəşriyyat, 1995.-212 s.

Rəfiyev B. Aysberqin sualtı hissəsi. – Bakı : Azərnəşr, 1995.-54 s.

Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. – Bakı : Azərnəşr, 1992. - 470 s.

Rəsulzadə M.Ə. Əsərləri. 1c. – Bakı : Azərnəşr, 1992. - 470 s.
Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. – Bakı : Gənclik, 1991.-112 s.

Səmədli Ə. İki ömür yaşayan adam.- Bakı : Hərbi nəşriyyat, 1999.-108 s.

Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri. – Bakı : Azərbaycan, 1997.-160 s.

Vəkilov R. Azərbaycan Respublikasının yaranma tarixi. – B : Elm, 1998. - 62 s.

Yaqublu N. Məmməd Əmin Rəsulzadə. – Bakı : Gənclik, 1991.-308 s.

Dövri mətbuat

Ə. Əvəz. Azərbaycanın davamlı iqtisadi inkişaf modeli qələbələrimizin rəhnidir / Ə. Ələkbərov // Xalq qəzeti. - 2019. - 18 oktyabr. - № 231. - S. 4.

M. Zemfira. Müstəqil ölkənin vətəndaşı olmaqdan qürur duyuruq : 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür / Z. Məsiyeva // Respublika. - 2019. - 18 oktyabr. - № 230. - S. 5.

# Ən böyük nailiyyətimiz əbədi müstəqilliyimizdir

## (metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 26
Çapa imzalanmışdır:14.09.2020
Tirajı:100
Pulsuz